

***Kərim Kərimli***

# *Salam, Şuşam!*

**Salam, Şuşam!**
**Salam, Şuşam, iki gözüm, əzizim!**
**Sürünüm yollarında mən dizin-dizin.**
**Sürtüm üz-gözümü ”sürünçək” daşlarına,**
**Açım qollarımı gur sel yağışlarına,**
**Küləklərin oxşasın pərişan tellərimi,**
**Haraylayım, haylayım didərgin ellərimi.**
**Salam, Şuşam, mənim şəhdim, şəkərim!**
**Salam, Şuşam, mənim şəhid şəhərim!**

**Salam, Şuşam!**
**Oğulları qırılmış, kişiləri vurulmuş,**
**Od içində boğulmuş, qan içində yuyulmuş,**
**Buludları doluxmuş, çiçəkləri soluxmuş,**
**Körpələri qocalmış, qocaları yorulmuş,**
**Qananı ”nadan” olmuş, nadanı ”qanan” olmuş**
**Üfüqləri qaralmış, adamları saralmış,**
**Salam, Şuşam, tale ülkərim, salam!**
**Var ikən yox olan şəhərim, salam.**

**Salam Şuşam!**
**Xanimanı dağılmış, oy... yurdu yağmalanmış.**
**Sarayları sökülmüş, var-dövləti talanmış,**
**Min illik xəzinəsi tonqallara qalanmış,**
**Min cür böhtan, yalanla günahsız damğalanmış,**
**Uğrunda övlad qanı sellənmiş, laxtalanmış,**

**Ramizini itirmiş, çalın-çarpaz dağlanmış,**
**Salam, Şuşam, unudulmuş şəhərim!**
**Haqqına daş basılmış susdurulmuş şəhərim!**

**Salam, Şuşam!**
**Keçəydim yollarından elə payi-piyada,**
**İçəydim sularından min ləzzət dada-dada.**
**Qucaydım dağlarının başında buludları,**
**Görəydim mən ölməmiş o doğmaca yurdları.**
**Topa-topa daşlara lopa-lopa qar yağa,**
**Xizəkli körpələrin şütüsünlər sol-sağa.**
**Qarqar daşsın yaz ağzı, sellər, sular hayqırsın,**
**Şimşəklərin kişnəsin, qartalların qıy vursun.**
**Salam, Şuşam, basılmış basılmazım!**
**Gözgörəti satılmış basılmazım!**

**Salam, Şuşam!**
**Salam, Şuşam, siyasətin qurbanı!**
**Aman! Şuşam-xəyanətin qurbanı!?**
**Şuşasız bu ölkə Vətən deyilmiş,**
**Sənə bu dünya da heç tən deyilmiş,**
**Gələcəm qoynuna dizlərim üstdə,**
**Ölsəm, Xarıbülbül məzarım üstdə,**
**Qalsam, bir daş kimi yonsunlar məni,**
**Uçuq divarına qoysunlar məni.**
**Salam Şuşam, iki gözüm, əzizim!**
**Sürünüm yollarında mən dizin-dizin...**

Ədalət.- 2020.- 9 may. S. 9.